

# Möhtəşəm musiqi bayramı

**Yenə də dünya musiqisevərlərinin diqqəti respublikamızın əsrarəngiz gözəlliyi ilə seçilən Qəbələyə yönəlib. Bu da təsadüfi deyil. Artıq üçüncü ildir ki, iyul-avqust aylarının təxminən eyni günlərində bu qədim və həmişəcavan diyar özünün unudulmaz fərəhli, qonaqlı-qaralı dövrünü yaşayır.**

Dalbadal üç ildir ki, Qəbələ böyük musiqi bayramına ev sahibliyi etmək missiyasının öhdəsindən ləyaqətlə gəlir.

Təbii ki, söhbət burada yüksək səviyyədə keçirilən və sonsuz maraqla qarşılanan Beynəlxalq Musiqi Festivalından gedir.

Oxucularımıza xatırladırıq ki, Heydər Əliyev Fondunun dəstəyi ilə 2009-2010-cu illərdə keçirilmiş I və II festival ölkəmizin mədəni həyatında mühüm hadisə olmaqla yanaşı, onun hüdudlarından kənarda da böyük əks-səda doğurmuşdur.

Mədəniyyətimizin böyük hamisi Heydər Əliyev Fondu dünyaşöhrətli musiqiçilərin, bədii kollektivlərin, solistlərin, görkəmli dirijorların iştirak etdikləri möhtəşəm musiqi bayramına beynəlxalq marağı əsas götürərək bu tədbiri ənənəvi olaraq hər il keçirməyi qərara almışdır.

Məlumat üçün bildirək ki, 2011-ci ildə Qəbələ III Beynəlxalq Musiqi Festivalının təşkili Respublika Mədəniyyət və Turizm Nazirliyinə həvalə edilmişdir.

Odur ki, musiqi bayramının yüksək səviyyədə hazırlanması və keçirilməsi məqsədilə nazirlikdə təşkilat komitəsi, qərargah və işçi qrupu yaradılmışdır. Təşkilat komitəsinin sədri mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, sədr müavini - mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev, festivalın bədii rəhbəri, Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli, üzvləri - nazirliyin incəsənət şöbəsinin müdiri Fərəh Əliyeva və Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəlzadədir.

İyulun 15-dən avqustun 5-dək davam edən festival çərçivəsində pianoçuların II Beynəlxalq müsabiqəsi də təşkil olunmuşdur. Bəri başdan deyək ki, gözləntilər özünü bu dəfə də doğrultmuş, tədbir fərəhdoğuracaq səviyyədə baş tutmuşdur. Bunu münsiflər heyətinin sədri, amerikalı pianoçu, BMT yanında Beynəlxalq İncəsənət Akademiyasının fəxri akademiki, ABŞ-dakı Culiard Musiqi Akademiyasının professoru Oksana Yablonskaya və Bakı Musiqi Akademiyasının rektoru,



professor Fərhad Bədəlbəylinin dilindən eşitmək nə qədər də xoşdur!

**Oksana Yablonskaya:** "Belə möhtəşəm musiqi bayramının keçirilməsinə görə münsiflər heyətinin üzvləri, müsabiqədə iştirak edən 9 ölkənin 15 iştirakçısı adından Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya minnətdarlıq edirik. Mən Azərbaycanın Qara Qarayev, Fikrət Əmirov kimi bəstəkarlarının əsərlərinə dərindən bələdəm. Mən azərbaycanlılarla təhsil almışam, həmçinin çoxlu sayda azərbaycanlı tələbələrim olub. Onların ifasını dinləmişəm. Bir sözlə, Azərbaycanda musiqiyə nə qədər böyük dəyər verildiyini yaxşı bilirəm. Məhz ona görə də hələ əvvəldən əmin idim ki, müsabiqə yüksək səviyyədə alınacaq"...

**Fərhad Bədəlbəyli:** "Qəbələdə növbəti dəfə belə bir musiqi bayramının təşkilinə görə Heydər Əliyev Fonduna minnətdaram. Qəbələ III Beynəlxalq musiqi festivalı Azərbaycan mədəniyyətini dünyaya təqdim etmək üçün ən yaxşı fürsət idi. Bu, mədəniyyətimizin inkişafı üçün yaradılmış yüksək şəraitin daha bir təzahürü idi. Bu həm də Azərbaycanın, Azərbaycan musiqisinin təbliğatıdır. Qəbələ festivalı xarici qonaqlara Azərbaycan bəstəkarlarının əsərlərini təqdim etməklə yanaşı, yerli musiqisevərlərə dünyanın klassik sənət inciləri ilə yaxından tanış olmaq imkanı da yaradır"...

Münsiflərdən gürcüstanlı **Manana Doijaşvili**nin müsabiqə ilə bağlı təəssüratı da zəngindir: "İlk dəfədir ki, buradayam. Təbiət, yaradılan şərait festival və müsabiqə keçirmək üçün çox gözəl məkandır. Düşünürəm ki, müsabiqənin səviyyəsinin bu dərəcədə yüksək olmasında bu amil təsirsiz ötüşməmişdir. Festivala uzunömürlü olmağı arzulayıram. Onun dünyada məşhur festivala çevrilməsini istərdim"...

Məlumat üçün bildirək ki, "Qafqaz Resorte" hotelində keçirilən müsabiqəyə dünyanın bir çox ölkələrindən (Çin, Ukrayna, Gürcüstan, Türkiyə, Yaponiya və s.) gənc pianoçular qatılmışlar. Burada iştirakçılar dünya və Avropa bəstəkarlarının əsərlərini səsləndirmişlər. Qaliblərə 1, 2 və 3-cü yerlər üzrə mükafatlar təqdim olunmuşdur.

İyulun 22-də yekunlaşan müsabiqədən sonra Qəbələ III Beynəlxalq musiqi festivalının konsert proqramları başlamışdır. İyulun 23-dən 30-dək Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri həm yerli, həm də əcnəbi ifaçılarla çıxışlar etmişdir. İyulun 30-da festivalın rəsmi açılışı olmuşdur. İyulun 30-dan avqustun 5-dək konsert proqramları isə "Yeni Rusiya" Dövlət Simfonik Orkestri tərəfindən təqdim edilmişdir. Festival çərçivəsində "Yay akademiyası" təşkil olunmuş, burada ustad dərsləri keçirilmişdir. Ağdaş və Şəkidə gerçəkləşən iki səyyar konsert də xüsusi maraqla qarşılanmışdır.

***

Müsabiqəyə xronoloji ardıcıllıqla yanaşaraq qeyd etməliyik ki, ilk tur iyulun 15-16-da keçirilmişdir. Birinci turda 9 ölkədən 15 pianoçu - Andrey Yaroşinski (Rusiya), Yelena Smirnova (ABŞ), Van Lin (Çin), Ab-



diel Yarquez (Meksika), Nərgiz Kəngərli (Azərbaycan), Mizuho Nakada (Yaponiya), Toğrul Adiloğlu (Azərbaycan-Türkiyə), Eren Yahsı, Eren Aydoğan (Türkiyə), Fatimə Əliyeva (Rusiya-Azərbaycan), Ketevan Cakarataşvili, Aleksandr Vaşadze, Anna Kipiani, Daniel Kontuaşvili (Gürcüstan) və Aleksandr Samoilov (Ukrayna) bacarıqlarını nümayiş etdirmişlər.

Müsabiqə iştirakçılarının hər birinin ümumilikdə 20 dəqiqə olmaqla 3 ifası dinlənilmişdir. Gənc pianoçular dünyaşöhrətli bəstəkarlardan İ.S.Baxın "Prelüd və Fuqa" əsərini, V.M.Motsart və Y.Haydnın "Sonata"sını, F.Şopenin "Virtuoz etüdü"nü səsləndirmişlər.

İfalardan sonra professor Oksana Yablonskayanın rəhbərliyi ilə münsiflər heyətinin qərarı açıqlanmışdır. İlk turda 15 nəfərdən 4-ü müsabiqəni tərk etmişdir. Azərbaycanlı pianoçular Nərgiz Kəngərli və Fatimə Əliyeva da ikinci turda iştirak hüququ qazanan 11 gənc pianoçu sırasında yer almışlar.

***

İyulun 17-18-də müsabiqənin ikinci turu keçirilmişdir. Bu turda 7 ölkədən 11 pianoçu - Andrey Yaroşinski (Rusiya), Abdiel Yarquez (Meksika), Nərgiz Kəngərli (Azərbaycan), Mizuho Nakada (Yaponiya), Fatimə Əliyeva (Rusiya-Azərbaycan), Daniel Kontuaşvili, Ketevan Cakarataşvili, Aleksandr Vaşadze, Anna Kipiani (Gürcüstan), Aleksandr Samoilov (Ukrayna) və Eren Aydoğan (Türkiyə) müsabiqənin finalına çıxmaq uğrunda mübarizə aparmışlar.

Proqrama əsasən, bu mərhələdə gənc pianoçuların hər biri ümumilikdə 50 dəqiqə ərzində 4 əsər ifa etmişdir. Onlar dünyaşöhrətli bəstəkarlardan L.V.Bethovenin "Sonata"sını, F.Listin "Etüd"ünü, Tofiq Quliyevin "Qaytağı" əsərini, eləcə də öz seçimləri ilə İ.Brams, R.Şuman və ya S.Raxmaninovun bir əsərini səsləndirmişlər.

İyulun 18-də müsabiqənin ikinci turu başa çatdıqdan sonra finala vəsiqə qazanmış ifaçıların adları elan olunmuşdur. Professor Oksana Yablonskayanın rəhbərlik etdiyi 11 nəfərdən ibarət münsiflər heyətinin açıqladığı yekun qərara əsasən, Andrey Yaroşinski (Rusiya), Nərgiz Kəngərli (Azərbaycan), Mizuho Nakada (Yaponiya), Ketevan Cakarataşvili, Aleksandr Vaşadze, Anna Kipiani (Gürcüstan), Aleksandr Samoilov (Ukrayna) bu turda uğurla çıxış edərək finalda iştirak etmək hüququ qazanmışlar. Final...

Finala gəlincə, telefiziya kanallarından izlədiyiniz, mətbuat orqanlarından öyrəndiyiniz kimi onun necə maraqla, məntiqi sonluqla, möhtəşəm şəkildə başa çatdığını gördünüz. Bu belə də olmalıydı.

**Mədəniyyətlər qovuşanda, qarşılıqlı münasibətdə olanda bundan yalnız festival və ya müsabiqəyə ev sahibliyi edən ölkə deyil, həm də bu bayrama qoşulanlar, ondan yaradıcılıqla bəhrələnənlər, nümunə götürənlər qazanırlar...**

**Y. VƏLİYEV**

